# PRES RELİZ

Bakı, 29 noyabr 2010-cu il

## Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyi Avropa Film Festivalının açılışını elan edir

**Avropa İttifaqının Azərbaycan Respublikasındakı Nümayəndəliyi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasında təmsil olunan Avropa İttifaqına (Aİ) üzv ölkələrin səfirlikləri ilə birgə Avropa Film Festivalının açılışını elan edir. Bakı şəhərində 10-16 dekabrda keçiriləcək Festival Aİ ölkələri və Azərbaycan arasında mədəni əlaqələrin qurulmasına və inkişafına, kino sənəti vasitəsilə Avropa dəyərlərinin və mədəniyyətinin daha yaxşı qavranılmasına yönəlir.**

Avropa Film Festivalının proqramı çərçivəsində Azərbaycanda təmsil olunan 14 Avropa İttifaqı ölkələrindən olan filmlər nümayiş etdiriləcəkdir (Belçika, Bolqarıstan, Çex Respublikası, Almaniya, Yunanıstan, Fransa. İtaliya, Litva, Macarıstan, Hollandiya, Avstriya, Polşa, Rumıniya, Böyük Britaniya). Filmlər Avropada müxtəlif ictimai təbəqələri narahat edən miqrasiya, işsizlik, bürokratiya, yaşlaşmaq kimi məsələlərdən başlayaraq qlobal istiləşməyədək olan ictimai və qlobal mövzulara toxunur.

10 dekabr saat 20.00-da nümayiş etdiriləcək Belçikanın "Hop" filmi ilə festival başlayacaqdır. Film departasiyaya məruz qalmış Brüsseldə yaşayan qeyri-qanuni immiqrantlar Castin və onun atası Didondan bəhs edir. Öz atası ilə qovuşmaq üçün Çastin qaçarkən həyəcanverici sərgüzəştlərlə üzləşməli olur. Lakin sistemlə mübarizə aparmaq üçün o, keçmiş anarxistin köməyindən istifadə etməlidir. Onlar birlikdə **"Hop"** sirrini tətbiq etməlidirlər. Belçika və beynəlxalq səviyyədə bir sıra mükafat qalibi olan Belçika filmi Festivalı açmaq şərəfinə layiq görülür, bu həm də ölkənin Avropa İttifaqında Sədrlik etməsi ilə bağlıdır.

Avropa Film Festivalında təqdim olunan bütün filmlər ingilis dilində, bir neçəsi isə Azərbaycan və rus dilində olan subtitrlərlə veriləcəkdir.

11-16 dekabr tarixlərində olan filmlər saat 18.00 və 20.00 başlayacaq, bazar günü 12 dekabrda isə saat 17.00 məktəblilər üçün xüsusi film nümayişi olunmalıdır. Hər kəs üçün giriş pulsuzdur.

Festival Rotunda otağında, Landmark Biznes Mərkəzi, Nizami küç. 90A keçriləcəkdir.

Avropa Film Festivalı haqda əlavə məlumatı, filmlərin cədvəli və müfəssəl informasiyanı Avropa İttifaqı Nümayəndəliyinin İnternet səhifəsindən www.delaze.ec.europa.eu əldə etmək olar.

Delegation of the European Union,
Landmark III, 96, Nizami Street, AZ1010, Baku, Azerbaijan
Tel. 012 497 20 63
Fax: 012 497 20 69
Email: delegation-azerbaijan@ec.europa.eu
www.delaze.ec.europa.eu

The European Union is made up of 27 Member States who have decided to gradually link together their know-how, resources and destinies. Together, during a period of enlargement of more than 50 years, they have built a zone of stability, democracy and sustainable development whilst maintaining cultural diversity, tolerance and individual freedoms. The European Union is committed to sharing its achievements and its values with countries and peoples beyond its borders".